**Fevralın 21-i bütün dünyada, o cümlədən ölkəmizdə də hər il Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.**

"Beynəlxalq Ana Dili Günü" münasibətilə Füzuli rayon 46 nömrəli tam orta məktəbdə də "Öz dilimdi şirin dil" adlı möhtəşəm tədbir keçirildi. Toplantıda müəllim və şagird kollektivi, məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Şahin Cəfərov, valideynlər, media nümayəndəsi iştirak edirdi. Məktəbin dil-ədəbiyyat müəllimləri Müzəyyəm Məhərrəmovanın və Gülşən İmanovanın təşkilatçılığı və məktəb şagirdlərinin iştirakı ilə hazırlanan ədəbi-bədii proqram bir çox məqamları ilə yaddaqalan oldu. Dövlət himninin səslənməsindən sonra tədbiri açıq elan edən aparıcılar Fatimə və Nəzrin iştirakçılara ana dilimiz, onun mənşəyi, yaranma tarixi haqqında ətraflı məlumat verdilər. 6-cı sinif şagirdləri Rüqəyya, Zəhra, Aylin doğma ana dilimizin zənginliyindən, gözəlliyindən bəhs edən şeirlər söylədilər.

**Dil açanda ilk dəfə ana söyləyirik biz**
**Ana dili adlanır bizim ilk dərsliyimiz.**

Üçüncü sinif şagirdləri Ayan və Fidanın ifasında səslənən "Ana dili" şeiri də alqışlarla qarşılandı.

**Doğma dilim! Sən ki, varsan dünyada**
**Mən də varam söyləməyə haqlıyam.**

Aparıcılar çıxış üçün sözü 8-ci sinif şagirdləri Elman, Zəhra və Sədətə verdilər. Onların ifasında səslənən şeirlər iştirakçılara duyğulu anlar yaşatdı. Sonra şagirdlərdən Əli və Ramazanın "Beynəlxalq Ana Dili Günü" haqqında hazırladıqları "Sürücü və usta" səhnəciyi nümayiş etdirildi. VII sinif şagirdləri Aysel, Duyğu və İlahənin ifasında təqdim edilən "Ana laylası" kompazisiyası tamaşaçıların sürəkli alqışları ilə qarşılandı. VIII sinif şagirdi Rəvanın sazda bacarıqla ifa etdiyi aşıq havası məclisə nikbin ruhiyyə bəxş etdi. Fatimə qeyd etdi ki, dilimizin saflığı, ahəngdarlığı yazıçılarımızın, şairlərimizin əsərlərində öz təsdiqini tapıb. Dilimizin gözəlliyi isə B. Vahabzadənin yazdığı "Ana dili" şeirində dərin hissiyyatla əks olunub. Tədbir iştirakçıları sükut içində şairin öz dilindən səsləndirilən həmin şeirini diqqətlə dinlədilər.

***Aparıcı Nəzrin qədim dövr sənətkarlarımızın əsərlərindən nümunələr gətirərək ana dilmizdə yazılan bu əsərlərin gələcək nəsillər üçün də dəyərli olduğunu vurğuladı və ulu öndərimizin ana dilimizə verdiyi böyük önəm və sevgidən söz açdı. Ümummilli liderin ana dilimiz barədə dediyi möhtəşəm fikirlərin onun öz dilindən səsləndirilməsi hamını düyğulandırdı. Aparıcı sözünə davam edərək dilimizi bəyənməyən, ana dilində danışmağa utanan manqurt düşüncəli insanlara ötən əsrin əvvəllərində olduğu kimi indi də rast gəlinmməsini milli faciə kimi qiymətləndirdi və böyük dramaturqumuz Cəlil Məmmədquluzadənin " Anamın kitabı" pyesində bu məqamı kəskin tənqid etməsini dilə gətirdi.***

Onun çıxışının ardınca Məhəmməd, İsmayıl, Məryəm, Nahid, Dadaş və Turalın hazırladığı "Anamın kitabı" adlı səhnəcik təqdim edildi.

Ədəbi-bədii gecə Dadaşın ifasında "Şirin dil" ifası ilə başa çatandan sonra Gülşən müəllim çıxış edərək iştirakçılara xitabən vurğuladı ki, gəlin basqa dillərdən olan sözlərlə dilimizin gözəllyini korlamayaq: "Dilimizin təmizliyini qorumalıyıq. Aparıcılar dilimizin zənginliyindən, ahəngdarlığından danışdılar, tarixi mənbələrdən sitatlar gətirdilər, dilimizin qorunmasında və inkişafında böyük rolu olan ulu öndər Heydər Əliyevin dilimizə olan sonsuz sevgisini göz önünə sərdilər. Heydər Əliyevin ana dilimizi inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilinin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi, dilin qayğısına qalmağı, onun saflığını qorumağı, onunla fəxr etməyi, onu dərindən bilməyi, mükəmməl mənimsəməyi, ana dilimizin gözəlliyini duymağı, bu gözəlliyi hər zaman hər yerdə təbliğ etməyi, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. " Müzəyyəm müəllim də çıxış edərək dilimizi qorumağın vacibliyini qeyd etdi. Söylədi ki, ulu öndərimiz dilimizin saflığını qorumaq yolunda mühüm addımlar atıb:"Heydər Əliyev söyləyib ki, ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir və gənclərimiz tariximizi, dilimizi, mədəniyyətimizi və dini dəyərlərimizi yaxşı bilməlidirlər."

# Ana dilim, milli varlığım




Tədris işləri üzrə direktor müavini Leyla Fətəliyeva isə çıxışında tədbirin təşkilatçılarına, hər bir şagirdə gözəl ifalarına görə təşəkkür etdi. Bildirdi ki, belə tədbirlərin keçirilməsi şagirdlərin milli-mənəvi ruhda tərbiyələnməsinə müsbət təsir göstərir.

Məktəbin direktoru Gülnaz Məmmədova müxtəlif məzmunlu tədbirlərin keçirilməsinə xüsusi diqqət ayırır, müəllim və şagirdlərin yüksək səviyyədə iştirakı üçün əlindən gələn köməyi və dəstəyi əsirgəmir".

**Bununla da Beynəlxalq Ana dili gününə həsr edilən tədbir sona çatdı.**

**Hüsniyyə Əlizadə**

Ədalət.- 2020.- 27 fevral.- S.6.